# Qəbələdə yaşıllaşdırma tədbirləri həyata keçirilir



*Ekoloji sabitliyin təmin olunması və ətraf mühitin qorunması Qəbələdə prioritet məsələlərdəndir. Bu tədbirlərin sırasında yaşıllaşdırma işləri xüsusi əhəmiyyət daşıyır və son illər bu sahədə işlər intensiv qaydada davam etdirilir.*

Bu günlərdə rayonda növbəti ağacəkmə aksiyasına start verilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən aksiya rayonumuzda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, yaşıllıqların artırılması, insanların diqqətinin yaşıllıqların genişləndirilməsinə və mühafizəsinə yönəldilməsi məqsədi daşıyır.

Ağacəkmə kampaniyasında ümumilikdə 600-dən çox iqlimə və relyef şəraitinə uyğun müxtəlif cinsli ağac əkilib.

Qeyd edək ki, ağacəkmə kampaniyası geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb.

**“Qəbələ”**

**İlkin Vəlizadə (foto).**

# Bu il üzüm bağlarında bol məhsul yetişdirilib



Rayonda üzüm yığımı başa çatıb.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elmdar Şərifovun verdiyi məlumata görə 421 hektar barverən üzüm bağlarından torpaq mülkiyyətçiləri 2417 ton məhsul tədarük ediblər.

İstehsal olunan məhsul əsasən daxili bazarlara, həmçinin rayonda fəaliyyət göstərən şərab zavodlarına göndərilib.

**“Qəbələ”**

# Güzəştli şərtlərlə gübrə satışı

Sentyabr ayından etibarən “Aqrolizinq” ASC tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə mövsümi mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışı həyata keçirilir.

“Aqrolizinq” ASC-dən verilən məlumata görə mineral gübrələrin güzəştli şərtlərlə növbəti səyyar satışı oktyabrın 26-da Qəbələnin Tüntül kəndində keçiriləcək.

Ətraf kəndlərin sakinləri də tələb olunan sənədləri təqdim etməklə mineral gübrələrin satışından 70 faiz güzəştlə yararlana biləcəklər.

**“Qəbələ”**

# Payızlıq əkin sürətlənir

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin məlumatına görə rayonda gələn ilin məhsulu üçün payızlıq dənlilərin əkini gündən-günə sürətlənir. Fermerlər indiyədək 1050 hektarı arpa, 200 hektar xəsil olmaqla 1250 hektar sahəyə toxum səpiblər.

Payızlıq dənlilərin əkini üçün indiyədək təsərrüfatlarda 19400 hektar sahədə şum aparılıb.



Cari mövsümdə rayonda 20100 hektar sahədə payızlıq dənlilərin əkini proqnozlaşdırılır.

**“Qəbələ”**

# Əkin sahəsi iki dəfədən çox artıb

Rayonumuzun təsərrüfatlarında şəkər çuğunduru yığımına başlanılıb.



Rayon Statistika İdarəsindən müxbirimizə bildiriblər ki, torpaq mülkiyyətçiləri bu il 192,4 hektar sahədə şəkər çuğunduru əkiblər. Bitkinin əkin sahəsi ötən illə müqayisədə 2,1 dəfə artıb. Fermerlər bu günədək sahələrdən 140 ton şəkər çuğunduru yığıblar. İstehsal edilən məhsul İmişli şəkər zavoduna göndərilir.

Xatırladaq ki, 2018-ci ildə qəbələli fermerlər 92 hektar sahədə şəkər çuğunduru becərib, 1875,1 ton məhsul əldə ediblər. Hər hektardan orta hesabla 203,8 sentner məhsul götürülüb.

**“Qəbələ”**

# Qızılbalıqartırma zavodu yenidən qurulacaq

Əmlak Məsələləri Dövlət Komitəsi bu il iyulun 30-da “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”na və “İnvestisiya müsabiqəsinin keçirilməsi Qaydaları”na uyğun olaraq D.Yusifov adına Qəbələ Qızıl Balıqartırma Zavodu ASC-nin səhmlərinin satışı üzrə investisiya müsabiqəsi elan edib.

AZƏRTAC xəbər verir ki, aidiyyəti dövlət qurumlarının təmsil olunduğu müsabiqə komissiyası tərəfindən potensial iddiaçılar qarşısında maliyyə, iqtisadi, investisiya və sosial şərtlər qoyulub. Əsas şərtlər müəssisəyə investisiya qoyuluşuna dair təkliflərin verilməsi, iş yerlərinin bərpası və yeni iş yerlərinin açılması, istehsalda müasir texnologiyaların tətbiqi, ekoloji tarazlığın qorunmasıdır. Müsabiqədə iştirak etmək üçün iddiaçılar tərəfindən investisiya təklifləri təqdim olunub. Təkliflərə baxıldıqdan sonra komissiya üzvləri arasında açıq səsvermə yolu ilə “Azerbaijan Fish Farm” Məhdud Məsuliyyətli Cəmiyyəti D.Yusifov adına Qəbələ Qızıl Balıqartırma Zavodu ASC-nin səhmlərinin satışı üzrə investisiya müsabiqəsinin qalibi elan edilib.

Müsabiqə qalibi alqı-satqı müqaviləsinin şərtlərinə uyğun olaraq dövlət büdcəsinə 1,2 milyon manat məbləğində vəsaitin köçürülməsini təmin edəcək. Eyni zamanda, ümumi həcmi 1,1 milyon manat təşkil edən investisiya proqramının icrası, müəssisənin əməkhaqqı və Dövlət Sosial Müdafiə Fonduna olan borclarının ödənilməsini, eləcə də digər sosial-iqtisadi və ekoloji öhdəliklərin yerinə yetirilməsini şirkət öz üzərinə götürüb.



İnvestisiya Proqramına əsasən qalib şirkət səhmdar cəmiyyətində hovuz və nohurların yenidən qurulmasını, əlavə nohurların inşasını, su təchizatı sisteminin bərpasını, yeni avadanlıqların alınmasını reallaşdıracaq. O cümlədən, investisiyalar dövriyyə vəsaitlərinin artırılmasına, bütün tikili və qurğuların, inzibati binanın əsaslı təmirinə, abadlıq və digər işlərin görülməsinə cəlb olunacaq.

Səhmdar cəmiyyətinə investisiyaların iki il ərzində yatırılması, görüləcək işlər nəticəsində 36 iş yerinin yaradılması planlaşdırılır. Müəssisənin yenidən qurulması və fəaliyyəti müxtəlif növdə balıqların yetişdirilməsinə şərait yaratmaqla yanaşı, yeyinti sənayesinin inkişafına və əhalinin bu məhsullara olan tələbatının ödənilməsinə xidmət edəcək.

# Hüquqi yardım göstərilir

Hər il 25 oktyabr tarixi bütün Avropa ailəsinə daxil olan ölkələrdə Avropa Ədalət Günü kimi qeyd olunur.

Prezident İlham Əliyevin ötən il fevralın 22-də imzaladığı “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamında hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün pulsuz hüquqi xidmətlər göstərilməsi nəzərdə tutulub. Bununla bağlı “Avropa Ədalət Günü” çərçivəsində oktyabrın 25-də iş günü ərzində Qəbələ “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərən vəkil bürosunda aztəminatlı şəxslərə ödənişsiz hüquqi yardım xidmətləri göstəriləcək.

Göstəriləcək yardım çərçivəsində əhaliyə şifahi hüquqi məsləhətlərlə yanaşı, müxtəlif orqanlara yazılı müraciətlərin hazırlanması və digər ödənişsiz hüquqi xidmətlər təqdim olunması nəzərdə tutulub.

**“Qəbələ”**

# Arxeoloqlar Akranın sirrini açırlar

Arxeoloqlar 2020-ci ildə Krımın yaxınlığında Qara dəniz suları altında qalmış Akra şəhərində tədqiqat işlərini davam etdirəcəklər.



Bu ərazidə çoxlu sayda unikal mədəniyyət abidələrinin olduğunu iddia edən alimlər bildirirlər ki, Akra şəhərinin qalıqlarının 90 faizi su altında, 10 faizi isə quruda qalıb. Onlar şəhərin quru hissəsində qazıntılara başlayıblar, suyun altında isə ekspedisiya gələn il təşkil ediləcək.

Qədim yaşayış məskəninin arxeoloji tədqiqatı 1982-ci ildə başlayıb. Həmin il Krımın sakinlərindən biri Akranın quru hissəsində çoxlu sayda qədim sikkə tapmışdı. O vaxt təşkil edilən ekspedisiya müəyyən etmişdi ki, şəhərin böyük bir hissəsi suyun altında qalıb.

Alimlər tarixi mənbələrə istinadla müəyyən ediblər ki, Akranın əsasını Bosfor dövlətləri - Nimfeya və Pantikapeyanın sakinləri qoyublar. Bu şəhər Takil burnunun şimal-şərq hissəsini əhatə edib və IV əsrin əvvəllərinə qədər Bosfor dövlətinin tərkibində olub.

Yeni və köhnə eranın ayrılması dövründə Qara dənizdə suyun səviyyəsinin qalxması nəticəsində Akra 4 metr dənizin altında qalıb. İndiyədək şəhərin ərazisinin 5 faizini aşkar etmək və orada ilkin tikililər və qüllələrin qalıqlarını tapmaq mümkün olub. Bu ilin yayında ekspedisiya artıq şəhərin müdafiə istehkamlarının 70 metrini üzə çıxarıb.

Gələcəkdə Akranın vizual bərpası layihəsinin hazırlanması da nəzərdə tutulur.

# Onlayn-xəritə xidmətindən adsız istifadə etmək mümkün olacaq

“Google” şirkəti öz müştərilərinə “Google Maps” onlayn-xəritə xidmətindən adsız istifadə edilməsi üçün imkan yaradacağı barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, “Google Maps” onlayn-xəritə xidmətindən istifadə zamanı “adsız” rejiminə keçməklə sizin bu mobil əlavədə hərəkətiniz şəxsi hesabınızda qeyd olunmayacaq. Korporasiya bildirib ki, Android əməliyyat sistemində işləyən mobil cihazların istifadəçiləri artıq bu ay yeni sistemdən istifadə edə biləcəklər. İOS sistemi ilə işləyən smartfon istifadəçiləri isə bu imkana bir qədər gec malik olacaqlar.

Sözügedən dəyişikliklər “Google” şirkətinə məxsus olan YouTube videohostinqini də əhatə edəcək. Buradakı əlavələrin yenidən nizamlanması axtarışla bağlı tarixçəni avtomatik silməyə kömək edəcək.



Korporasiyanın bu addımı ötən il Associated Press agentliyinin müştərilərin icazəsi olmadan onların şirkət tərəfindən izlənilməsi ilə bağlı qalmaqallı məqaləsi ilə əlaqədar atılıb.